

***Musa Xanbabazadə***

## Mars qalar

Nə ermәni,nə də fars
Türkə gəlməsinlər
qorxu-tars.
Türküm bir gediş edər,
hər ikisi qalar mars.

## Gəbərdi

Bir hünər görmədik biz
Paşinyanın zatında.
Öldü-gəbərdi alcaq
44 günlük savaşda
dəmir yumruq altında.

## Dindaş xəyanəti

İran güclə çıxarır
sudan öz çulunu.
Öz başına çarə qılmır,
əl atır sudan çıxarır
dindaşına çamur atan
bir gavurun oğıunu.

## Yetim qalmasın

Savaşın qızğın çağında
yanıqlı-yanıqlı oxuyurdu ud.
Sanki belə deyirdi haray çəkərək:
Dəliqanlı igidim !
Hər nə edirsənsə - et,
ancaq bu savaşı ud.
Ud ki,yetim qalmasın
bizə əmanət bu yurd.

## Mənəmlik azarı

İki qılınc
girməz oldu bir qına.
Yurd yenildi
gözlənilməz basqına.

## Yıxdıq

Gün ilə batdıq,
gün ilə çıxdıq.
Məmləkətdə hökm sürən
kor qaranlığın
taxtını yıxdıq.

Ədalət.- 2023.- 28 aprel. S. 6.